# Azərbaycanın təkmil seçki sistemi mövcuddur

## Parlament seçkiləri demokratik cəmiyyətimizin möhkəmliyini bir daha nümayiş etdirəcək

**"Konstitusiyamızın 56-cı maddəsinin 1-ci bəndində Azərbaycan Respublikası vətəndaşlarına dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ verilir. Seçkilərin keçirilməsi xalqa onu təmsil edəcək səlahiyyətli nümayəndələrini seçmək hüququ verir. Konstitusiyanın 4-cü maddəsinə əsasən, xalqın seçdiyi nümayəndələrindən başqa heç kəsin xalqı təmsil etmək, xalqın adından danışmaq və xalqın adından müraciət etmək hüququ yoxdur. Bu baxımdan konstitusiyamız xalqa seçki yolu ilə ölkə rəhbərini, Milli Məclisə deputatları, yerli özünüidarəetmə orqanlarını seçmək və referendumlarda iştirak etmək hüququ verir".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Azər Badamov deyib. O qeyd edib ki, müstəqillik illərində Azərbaycanın seçki sistemi təkmilləşdirilib və hər bir vətəndaşa ölkədəki siyasi proseslərdə yaxından iştirak etmək hüququ verilib: "Dövlətimiz seçkilərin keçirilməsi və vətəndaşların seçkilərdə iştirakı üçün bütün şərait yaradıb. Ölkəmiz seçkilərin keçirilməsi ilə bağlı böyük nailiyyətlərə imza atıb. Belə ki, şəffaf seçkilərin keçirilməsi üçün ölkəmizin hər yerində seçki məntəqələri yaradılıb. Seçki məntəqələri elektrik generatorlarından başlamış bütün avadanlıqlar və ləvazimatlarla təmin olunur. Böyük xoşbəxtlikdir ki, bu gün seçki məntəqələrimiz işğaldan azad olunmuş ərazilərdə də yaradılmışdır. 30 ildə keçmiş məcburi köçkünlərimiz öz ata yurdlarında səs vermək hüququndan məhrum olunmuşdu. Artıq bu problem də öz həllini tapıb və işğaldan azad olunmuş ərazilərdə onlarla seçki məntəqəsi fəaliyyət göstərməyə başlayıb. İşğaldan azad olunmuş ərazilərə qayıtmış səsvermə hüququ olan bütün vətəndaşlarımız doğma yurdlarında seçkilərdə iştirak etmək imkanı əldə ediblər".

Deputat vurğulayıb ki, dövlət seçkilərin maksimum şəffaf keçirilməsi üçün bütün imkanları yaradıb. Seçki Məcəlləsi seçki prosesini tənzimləyir və seçkidə iştirak edən hər bir şəxsə siyasi mübarizəni aparmaq üçün bərabər imkanlar verir. Seçkilərin demokratikliyini müşahidə etmək üçün beynəlxalq təşkilatların və dövlətlərin nümayəndələri ölkəmizə dəvət olunurlar. Amma təəssüf ki, bəzi beynəlxalq təşkilatlar MDB-yə üzv ölkələrdə keçirilən seçkilərə ikili standartlardan yanaşır və rəylərini qabaqcadan hazırlayaraq gəlirlər. "Məsələn, ATƏT-in seçkilərdə müşahidə missiyası həmişə seçkilər haqqında mənfi rəy yaratmağa çalışıb. Buna baxmayaraq, biz ATƏT-in müşahidə missiyasını yenidən dəvət edirik və seçkiləri necə şəffaf keçirdiyimizi onlara yenə nümayiş etdiririk. Adətən "exit poll"un müşahidələri ilə seçkilərin nəticələrinin üst-üstə düşməsi seçkilərin şəffaflığını sübut edən göstəricidir. Azərbaycanda səsvermə günü də hər bir vətəndaşa azad şəkildə öz iradəsini nümayiş etdirməyə şərait yaradılır".

2024-cü ilin Azərbaycanda seçkilər ili olduğunu deyən A.Badamov xatırladıb ki, xalqımız fevralda prezident seçkisində iştirak edib, 1 sentyabrda parlament seçkilərində, dekabrda isə bələdiyyə seçkilərində iştirak edəcək. Seçkinin hansı orqana keçirilməsindən asılı olmayaraq, hər bir orqanın dövlətin idarə olunmasında, ölkənin suverenliyinin möhkəmlənməsində, inkişafında və xalqın rifahının yaxşılaşmasında xüsusi rolu var. "Xalqımız fevral ayında keçirilən prezident seçkilərində böyük səs çoxluğu ilə cənab İlham Əliyevi dövlət başçısı seçdi. Bu, ölkəmizin daha da güclənməsi və inkişafı üçün xalqın dəstəyi idi", - deyə o əlavə edib.

Deputat hesab edir ki, Azərbaycan xalqı qarşıdan gələn seçkilərdə də fəallıq nümayiş etdirəcək vətəndaşlarmız səsvermə hüququndan istifadə etməklə dünyaya demokratik cəmiyyətimizin möhkəmliyini bir daha göstərəcək.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 4 avqust (№ 164).- S.4.